# BAKU ENERGY WEEK

1 | 2 | 3 İYUN 2026

CASPIAN OIL&GAS

CASPIAN POWER

BAKU ENERGY FORUM



# SƏRGİ ÜZRƏ HESABAT

www.bew.az

#BakuEnergyWeek

BAKU ENERGY WEEK

# Mündəricat


Baku Energy Week Haqqında.....1
Rəsmi Açılış Mərasimi.....2
Strateji Tərəfdaşlıqlar.....3
Rəsmi qonaqları.....5
Salamlama məktubları.....7
Rəsmi Qonaqların Şərhləri.....9
Mətbuat Konfransı.....10
Reklam Kampaniyası.....11
Sərgi Ziyarətçiləri.....12
Ziyarətçilərin Rəyləri.....13
Sərgilərin İştirakçıları.....14
İştirakçıların Rəyləri.....16
İşgüzar Proqramı.....17
B2B/b2G Görüşlər.....18
Axşam Ziyafəti.....19
Sponsorlar və Tərəfdaşlar.....20
Caspian Oil&Gas 2026 Haqqında.....21
Caspian Power 2026 Haqqında.....22

BAKU ENERGY WEEK

# BAKI ENERJİ HƏFTƏSİ ÖZ BRENDİ ALTINDA 3 ƏSAS TƏDBİRİ BİRLƏŞDİRDİ-

**31-Cİ XƏZƏR NEFT VƏ QAZ BEYNƏLXALQ SƏRGİSİ – "CASPIAN OIL&GAS"**

**14-CÜ XƏZƏR BEYNƏLXALQ TƏMİZ ENERJİ SƏRGİSİ – "CASPIAN POWER"**

**31-Cİ BAKI ENERJİ FORUMU**

"Caspian Oil&Gas" - sərgi neft, qaz və energetika sahəsində aparıcı mütəxəssislərin görüş yeridir və burada gələcək əməkdaşlığa dair memorandumlar, sazişlər və müqavilələr imzalanır. Sərgi və konfransın iştirakçılarının siyahısına dünyanın neft və enerji sektorunun aparıcı şirkətləri daxildir.

"Caspian Power" - Sərgi enerji istehsalçıları, dövlət qurumları və xarici investorlar üçün unikal görüş yeridir və burada əməkdaşlıq və uzunmüddətli tərəfdaşlıq üçün qeyri-məhdud imkanlar açılır.

# BAKI ENERJİ HƏFTƏSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ




1 iyun 2026-ci il tarixində Bakı Ekspo Mərkəzində 31-ci Bakı Enerji Həftəsinin açılış mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir. Bu, tədbirin əhəmiyyətini və statusunu bir daha təsdiqləyir.

"Mən "Bakı Enerji Həftəsi"nin bütün iştirakçılarını salamlayıram, bu cür böyük tədbirə uğurlar arzu edirəm.

Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub.

Bu bir daha göstərir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm".

"Əminəm ki, ənənəvi olaraq "Bakı Enerji Həftəsi" bu dəfə də uğurlu nəticələr verəcəkdir. Bir neçə dəqiqədən sonra bu nəticələrin bir qisminin şahidi olacağıq. Lakin əminəm ki, aparılan müzakirələr, təmaslar, yeni ideyalar və nəticəyönümlü planlar hamımız üçün faydalı olacaqdır. Bir daha bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram".

Bakı Ekspo Mərkəzində 31-ci Bakı Enerji Həftəsinin açılış mərasimidə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışından bir hissə








# STRATEJİ TƏRƏFDAŞLIQLAR VƏ ƏMƏKDAŞLIQ SAZİŞLƏRİ



Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimi çərçivəsində SOCAR və beynəlxalq tərəfdaşlar arasında təbii qaz təchizatı, geoloji kəşfiyyat, investisiyalar, enerji infrastrukturunun inkişafı, süni intellekt və təhsil sahələrini əhatə edən bir sıra strateji saziş və memorandumlar imzalanıb. Imzalanma mərasimi Azərbaycanın qlobal enerji əməkdaşlığında və enerji keçidi təşəbbüslərində artan rolunu bir daha nümayiş etdirib.















# BAKI ENERJİ HƏFTƏSİNİN RƏSMİ QONAQLARI

- **Şahmar Mövsümov,**
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

- **Natiq Əmirov,**
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

- **Muxtar Babayev,**
Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi

- **Pərviz Şahbazov,**
Azərbaycan Respublikasının energetika naziri

- **Mikayıl Cabbarov,**
Azərbaycan Respublikasının iqtisadiyyat naziri

- **Valeh Ələsgərov,**
Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri

- **Rövşən Nəcəf,**
SOCAR-ın prezidenti

- **Vüqar Əhmədov,**
"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

- **Cavid Abdullayev,**
Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru

- **Alparslan Bayraktar,**
Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri

- **Denis Şmıqal,**
Ukraynanın Baş nazirinin birinci müavini və energetika naziri

- **Dorin Junqetu,**
Moldova Respublikasının energetika naziri

- **Kərim Bədəvi,**
Misir Ərəb Respublikasının neft və mineral ehtiyatlar naziri

- **İqbal Həsən Mahmud,**
Banqladeş Xalq Respublikasının energetika və mineral ehtiyatlar naziri

- **Yerlan Akkenjenov,**
Qazaxıstan Respublikasının energetika naziri

- **Jurabek Mirzamahmudov,**
Özbəkistan Respublikasının energetika naziri

- **Taalaibek İbraev,**
Qırğızıstan Respublikasının energetika naziri

- **Oleq Korobçenko,**
Tatarıstan Respublikasının Baş nazirinin müavini – sənaye və ticarət naziri

- **İnqa Pxaladze,**
Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin müavini

# BAKI ENERJİ HƏFTƏSİNİN RƏSMİ QONAQLARI

- **Şərif Səfərəli Məhmədzoda,**
  Tacikistan Respublikasının energetika və su ehtiyatları nazirinin müavini
- **Səid Təvəkkoli,**
  İran İslam Respublikasının Neft nazirinin müavini, İran Milli Qaz Şirkətinin icraçı direktoru
- **Erlind Sulo,**
  Albaniya Respublikasının infrastruktur və energetika nazirinin müavini
- **Kiril Temelkov,**
  Bolqarıstan Respublikasının energetika nazirinin müavini
- **Sindi Rondon,**
  Venesuela Bolivar Respublikasının qaz məsələləri üzrə nazirinin müavini
- **Sonya Vlahoviç,**
  Serbiya Respublikasının Mədənçilik və Energetika Nazirliyinin dövlət katibi
- **Kaleb Orr,**
  ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi
- **Devid Rid,**
  Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı
- **Kristina Lobillo Borrero,**
  Avropa Komissiyasının Enerji üzrə Baş Direktorluğunun Enerji Təhlükəsizliyi və Beynəlxalq Əlaqələr üzrə direktoru
- **Françesko La Kamera,**
  Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) Baş direktoru
- **Filip Mşelbila,**
  Qaz İxrac Edən Ölkələr Forumunun (GECF) Baş katibi
- **Sohail Mahmud,**
  İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Baş katibi
- **Stella Opakas,**
  Keniya Respublikasının Enerji və Neft Tənzimləmə Qurumunun Neft Sənayesinin Midstream və Downstream üzrə direktor müavini
- **Əhməd Əl Kaabi,**
  BƏƏ-nin Energetika və İnfrastruktur Nazirliyində Elektrik enerjisi, su və gələcək enerji sektoru üzrə nazir müavininin köməkçisi
- **Ariana Soemanto,**
  İndoneziya Enerji və Mineral Ehtiyatlar Nazirliyinin neft və qazın kəşfiyyatı və hasilatı sektoru üzrə biznesin inkişafı direktoru
- **Bernhard Kelkes,**
  Niderland Krallığının Xarici İşlər Nazirliyinin Bağlantılar üzrə xüsusi elçisi
- **Qordon Birrell,**
  "bp" şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti (EVP)
- **Abduqani Sanginov,**
  "Uzbekneftegaz" şirkətinin İdarə Heyətinin sədri
- **Cem Erdem,**
  "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkətinin baş direktoru
- **Asxat Xasenov,**
  "KazMunayGas" SC Milli Şirkətinin İdarə Heyətinin sədri

# SALAMLAMA MƏKTUBLARI

**Türkiyə Respublikasının Prezidenti Recep Tayyip Erdoğanın Bakı Enerji Həftəsinin iştirakçılarına və qonaqlarına ünvanlandığı salamlama məktubunu**
Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar oxuyub



“Hörmətli iştirakçılar, hörmətli qonaqlar.
Sizi ən səmimi duyğu və sevgi ilə salamlayıram.
Otuz ildən artıq müddətdir qlobal enerji liderlərini, investorları və şirkətləri bir araya gətirən bu mötəbər foruma məktub göndərməklə də olsa, müraciət etməkdən böyük məmnunluq duyuram.

Regionumuzda yaşanan proseslər Azərbaycanla birlikdə enerji sahəsində atdığımız addımların nə qədər düzgün olduğunu göstərir. Bölgəmiz üçün xəyal kimi görünən bir çox meqalayihəni Azərbaycanla birlikdə uğurla həyata keçirməkdə davam edirik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP boru kəmərləri kimi layihələr Azərbaycanla birlikdə başlatdığımız və digər bir dost ölkə Gürcüstanın da töhfələri ilə başa çatdırdığımız layihələr arasındadır.

“Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” layihələrində tərəfdaşlığımız sayəsində Azərbaycanla əməkdaşlığımızın daha da dərinləşdiyini görürük. “Şəfəq-Asiman” yatağı üzrə yeni tərəfdaşlığımız bu əməkdaşlığımızın fasiləsiz şəkildə davam etməsinin növbəti bariz sübutudur. Ötən il istifadəyə verilən İğdır-Naxçıvan qaz kəməri Naxçıvan bölgəsinin enerji təhlükəsizliyini dəstəkləyib və möhkəmləndirib.

Türkiyə ilə Azərbaycan arasındakı elektrik bağlantıları bizim üçün strateji əhəmiyyət daşımaqdadır. İnşallah, Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstan arasında yaşıl elektrik enerjisinin ötürülməsi və ticarəti layihəsinin həyata keçirilməsi ilə bütün regionumuzun enerji təhlükəsizliyinə töhfə verməyi düşünürük.

Eyni qaydada, ötən ilin avqust ayında Türkiyə və Azərbaycanın birgə təşəbbüsü nəticəsində Suriyaya qaz tədarükünün başlanmasının bu ölkənin inkişafına və regional təhlükəsizliyə töhfələri mübahisəsizdir. Türkmənistan qazının Azərbaycan və Türkiyə vasitəsilə ixracı istiqamətində əməkdaşlığımızı genişləndirmək üçün qarşımızda böyük imkanlar mövcuddur. Qazaxıstanın təbii ehtiyatlarının Qərb bazarlarına çatdırılmasında Bakı-Tbilisi-Ceyhan boru kəmərindən istifadənin daha da artmasının şahidi oluruq.

Hörmətli iştirakçılar, Türkiyə bərpaolunan və yaşıl enerji də daxil olmaqla enerji sektorunun bütün istiqamətlərində səmərəliliyi və ətraf mühitə qayğını əsas götürərək məhsuldarlığı təmin etməyə yönəlmiş baxışa sahibdir. Qlobal iqlim fəaliyyəti sahəsində öncül və nümunəvi ölkələrdən biri olmaq əzmimizi bu il noyabrın 9-20-də Antalyada ev sahibliyi edəcəyimiz COP31 Sammiti ilə daha da möhkəmləndirəcəyik.

Bu fikirlərlə “Bakı Enerji Həftəsi”nin ölkələrimiz və regionumuz üçün xeyirlərə vəsilə olmasını arzulayıram. Tədbirin təşkilində əməyi olanlara təşəkkür edir, Əziz Qardaşım Prezident cənab Əliyevi və bütün iştirakçıları səmimiyyətlə salamlayıram”.

# SALAMLAMA MƏKTUBLARI

**ABŞ Prezidenti Donald Trumpın Bakı Enerji Həftəsinin iştirakçılarına və qonaqlarına ünvanlandığı salamlama məktubunu**
ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orr oxuyub



“Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev.

31-ci “Bakı Enerji Həftəsi”ni keçirdiyiniz vaxtda Sizə və Azərbaycan xalqına öz təbriklərimi çatdırıram. Bu nailiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur.

Ölkələrimiz karbohidrogen sektorunda uzun tarixi olan əməkdaşlığa malikdir və əlçatan, zəngin enerjinin təmin edilməsinə sadiqdirlər. Birləşmiş Ştatlar Azərbaycanın neft-qaz sənayesinin çox böyük tərəfdarıdır və mən qətiyyətlə inanıram ki, qlobal enerji təhlükəsizliyi sahəsində əsaslı tərəfdaşlığımızın əhəmiyyəti gələcək illərdə yalnız artacaqdır.

Biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq. Bildiyiniz kimi, regional enerji inteqrasiyası avqustun 8-də keçirilmiş tarixi sülh sammitinin əsas sütunudur. Mənim Administrasiyam bu mövzu ilə əlaqədar iyun ayında məhsuldar müzakirələri səbirsizliklə gözləyir.

Biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq. Uğurlu “Bakı Enerji Həftəsi” münasibətilə bir daha təbriklərimi çatdırıram”.

# RƏSMİ QONAQLARIN ŞƏRHLƏRİ



## Pərviz Şahbazov

Azərbaycan Respublikasının energetika naziri

Xəzər hövzəsində yaranan bu geniş əməkdaşlıq imkanları bir daha təsdiq edir ki, Bakı Enerji Həftəsi uzunmüddətli perspektivdə də ortaq təşəbbüslərin müzakirə olunduğu və yeni tərəfdaşlıqların qurulduğu mühüm platforma olaraq qalacaqdır.
İnanıram ki, qarşılıqlı faydalı əməkdaşlığımız ölkələrimizin davamlı inkişafına və daha geniş coğrafiyada enerji təhlükəsizliyinin təmininə bundan sonra da mühüm töhfə verəcək, Bakı Enerji Həftəsi isə dayanıqlı enerji gələcəyinin qurulmasında etibarlı dialoq məkanı kimi rolunu davam etdirəcəkdir.



## İqbal Həsən Mahmud

Banqladeş Xalq Respublikasının Hökumətinin energetika və mineral ehtiyatlar naziri

Mən ilk dəfədir ki, Baku Energy Week-də iştirak edirəm və tədbirin yüksək səviyyədə təşkilindən olduqca təsirlənmişəm. Bakı Enerji Forumunda müzakirə olunan mühüm mövzular arasında enerji təhlükəsizliyi məsələləri xüsusi əhəmiyyət daşıyır. Təbii ki, ümid edirik ki, qəbul ediləcək qərarlar mövcud problemlərin sabitləşdirilməsinə və risklərin azaldılmasına öz töhfəsini verəcək.



## Kiril Temelkov

Bolqarıstan Respublikasının energetika nazirinin müavini

Baku Energy Week Azərbaycanın paytaxtında Avropa, Asiya və Afrikadan olan ekspertləri bir araya gətirib. Hamımız Bakıda eyni masa arxasında toplaşaraq mürəkkəb dövrdə bir-birimizi necə dəstəkləyə biləcəyimizi müzakirə edirik. Hesab edirəm ki, Bakı Enerji Forumu vaxtında təşkil olunub və böyük potensiala malikdir. Burada çox maraqlı müzakirələr və ekspertlərlə açıq dialoqlar aparılır.

# RƏSMİ QONAQLARIN ŞƏRHLƏRİ



## Kristina Lobilla Borrero

Avropa Komissiyasının Enerji üzrə Baş Direktorluğunun Enerji, təhlükəsizlik və beynəlxalq münasibətlər üzrə şöbəsinin rəhbəri

Uzun illərdir ki, bu forum enerji sektoru üçün vacib olan məsələləri gündəmə gətirir. Bunlar təkcə Xəzər regionu üçün deyil, həm də Avropa və daha geniş beynəlxalq enerji birliyi üçün mühüm məsələlərdir. Bakının uzun və möhtəşəm enerji tarixi var. Bununla yanaşı, Bakı enerji tərəfdaşlıqlarının gələcəyinin müzakirə olunduğu bir məkandır.



## Rövşən Nəcəf

SOCAR-ın prezidenti

İnanıram ki, 30 ildən artıq qlobal sənaye liderlərini və tərəfdaşları bir araya gətirən Bakı Enerji Həftəsi çərçivəsində aparılacaq müzakirələr və qurulacaq yeni əməkdaşlıq əlaqələri ədalətli enerji keçidi təşəbbüsünə mühüm töhfə olmaqla yanaşı, innovativ yanaşmaların tətbiqinə təkan verəcək və birgə səylərimizi daha da gücləndirəcək.



## Filip Mşelbila

Qaz İxrac Edən Ölkələr Forumunun Baş katibi

"Bakı Enerji Həftəsi" dünyanın enerji dialoquna, beynəlxalq əməkdaşlığa və praktiki həllərə hər zamankından daha çox ehtiyac duyduğu bir dövrdə bu üç istiqaməti bir araya gətirən mühüm platformadır. Bu mühüm toplantının keçirilməsinə görə Azərbaycan hökumətinə və təşkilatçılara təşəkkür edir, "Bakı Enerji Həftəsi 2026"ya uğurlar arzulayıram.

# MƏTBUAT KONFRANSI




## MƏTBUAT KONFRANSINDA İŞTİRAK ETMİŞLƏR:



**Bəhruz Hidayətzadə**
"Caspian Event Organisers"
şirkətinin İcraçı direktoru



**Amil Həsənov**
Azərbaycan Respublikası
Energetika Nazirliyinin İctimaiyyətlə əlaqələr
və informasiya təhlükəsizliyi şöbəsinin müdiri



**Emin Sevdimaliyev**
SOCAR-ın
mətbuat katibi



**Nailə Əliyeva**
"Bakı Enerji Həftəsi"nin
layihə meneceri



**Ləman Ağayeva**
"Translogistica Caspian" sərgisinin
layihə meneceri

## MƏTBUAT KONFRANSINDA İŞTİRAK EDƏN KİV NÜMAYƏNDƏLƏRİ:

AzTV, Baku TV, Real TV, ARB TV, İctimai TV, Biznes TV, APA Group, AnewZ, Caspian Barrel, CBC, "Xalq Qəzeti", Medianews.az, Caspian Magazine, AZƏRTAC, Trend News Agency, "Azərbaycan" qəzeti, Ona.az, Oxu.az, Baku News, Business Time, Faktor News, Lent.az, PostNews, Redaksiya, Report İnformasiya Agentliyi, Vesti.az, Radio Energy və başqaları.

## INFORMATION SUPPORT OF THE EXHIBITION

BAŞ İNFORMASİYA TƏRƏFDAŞI

İNFORMASİYA TƏRƏFDAŞLARI

NETVORKİNQ TƏRƏFDAŞI

İNFORMASİYA DƏSTƏYİ

İNTERNET DƏSTƏYİ

# REKLAM KAMPANİYASI









- BANERLƏR
- BİLBORDLAR
- POSTERLƏR
- ROLLAPLAR
- SCROLLERS
- MONİTORLAR

**6397**
xəbər

**264**
xəbər portalında

**102**
məqalə

**14**
qəzet və jurnalda

**181**
süjet

**8**
TV kanalda

**12**
yayım

**6**
radio kanalda

# SƏRGİ ZİYARƏTÇİLƏRİ

**6691** professional ziyarətçi Dünyanın 70 ölkəsindən

**90%** visitors find their visit effective

**73%** visitors make or influence purchasing decisions

## CASPIAN OIL&GAS 2026 VƏ CASPIAN POWER 2026 SƏRGİLƏRİN ZİYARƏTÇİLƏRİN İXTİSASLAR ÜZRƏ BÖLGÜLƏRİ

- Şirkət rəhbərləri / təsisçilər
- Satış menecerləri
- Mexanika mühəndisləri
- Maliyyə mütəxəssisləri
- Satınalma menecerləri
- Energetika üzrə mütəxəssislər
- Layihə menecerləri
- Marketinq menecerləri
- Biznesin inkişafı üzrə menecerlər
- Energetika mühəndisləri
- İnsan resursları (HR) üzrə menecerlər
- İT mütəxəssisləri
- Fərdi sahibkarlar
- Geoloqlar, geofiziklər, geodezistlər
- Texniki menecerlər
- KİV nümayəndələri (media nümayəndələri)

| COMPANY | POSITION |
|---|---|
| AZEL Systems | Satış menecerinin müavini |
| Azeri MI Drilling Fluids LLC | Baş menecer |
| Azərenerji ASC | Proqram mühəndisi |
| Bahar Energy Operating Company | Risk meneceri |
| Baker Hughes | Layihələrin idarə olunması üzrə baş menecer |
| Black Sea Terminal | Texniki bütövlük və layihələr üzrə rəhbər |
| Bos Shelf LLC | Materiallara nəzarət üzrə rəhbər |
| Caspian Geo | Baş direktor |
| Elbit Systems of Azerbaijan | Menecer |
| Emerson | Satış meneceri |
| ENERSOL MMC | Əməliyyatlar üzrə menecer |
| Gazprom | Nümayəndəliyin direktor müavini |
| GL Group | İcraçı direktor |
| Gran Tierra Energy | Korporativ təchizat zəncirinin idarə olunması üzrə menecer |
| Halliburton | Həllər üzrə mühəndis |
| HONEYWELL | Satış meneceri vəzifəsini icra edən |
| JOCAP | Kommersiya analitiki |
| Lukoil - Azerbaijan QSC | Baş direktor |
| Nobel Energy | Baş əməliyyat direktoru |
| NOV Azerbaijan LLC | Satış üzrə baş vitse-prezident |
| Oceaneering | Ölkə üzrə menecer |
| PDL | Texniki xidmət mühəndisi |
| Rapid Solutions | Regional direktor |
| Rotvest Safety | Direktor |
| SAIPEM | Layihə hidroqrafı |
| Salyan Oil | Mühəndis |
| Siemens Energy | Azərbaycandakı filialın rəhbəri |
| Solar Turbines Europe S.A. | Regional menecer |
| UBOC - Umid Babek Operating Company | Layihələrə nəzarət üzrə menecer |
| Vallourec Oil & Gas France | Regional menecer |
| Vertex | Aparıcı satınalma mütəxəssisi |

*Sərginin hər gününün sonunda iştirakçılara şirkət adları və vəzifələr ilə ziyarətçilərin siyahısı göndərilir

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ



Azərbaycana, Xəzər Neft və Qaz sərgisinə ilk dəfədir gəlirəm. Həm Bakı şəhəri, həm də Bakı Enerji Həftəsinin təşkilatçılığı insanda çox güclü təəssürat yaradır. Deyərdim ki, bu, nəinki postsovet məkanında, bəlkə də bütün Avropada ən güclü enerji forumlarından biridir. İlk növbədə, burada böyük şirkətlərin iştirakı sevindirir, ikincisi isə ekspo mərkəzin layiqli potensialı və ümumi təşkilatçılıq səviyyəsi çox yüksəkdir. Azərbaycanda və Qazaxıstanda fəaliyyət göstərən aparıcı bazar iştirakçıları burada geniş təmsil olunublar.

**ABZAL ALPISBAYEV**
S&P Global şirkətinin kəşfiyyat və hasilat üzrə aparıcı analitiki (Upstream Intelligence)



Bakıdakı sərgiyə ilk dəfə yerli bazarla tanış olmaq, yeni tərəfdaşlar tapmaq, eləcə də "Caspian Oil&Gas" sərgisinin iştirakçıları olan qazaxıstanlı həmkarlarımla görüşmək məqsədilə qatıldım.
Sərgi kifayət qədər genişmiqyaslıdır və burada müxtəlif şirkətlər təmsil olunur. Ekspozisiya ilə tanış olmaq, maraqlandığım iştirakçılarla, həmçinin bizimlə əməkdaşlıqda maraqlı olan bir neçə sistem inteqratoru ilə görüşmək üçün mənə iki gün lazım oldu.

**Əlixan Niqmaşev**
"KMG Automation" şirkətinin inkişaf üzrə meneceri



Sərgi ilə bağlı təəssüratlarım da eyni dərəcədə müsbətdir. Bu günlər ərzində çoxlu sayda yeni əlaqələr qurmağa nail olduq. Sərginin özü olduqca aktiv və zəngindir, burada həm işgüzar proqram, həm də ekspozisiya hissəsi yer alır. Enerji Forumunun gedişində mənə də çıxış etmək qismət oldu; orada "Buran" şirkətini və Azərbaycanın neft-qaz bazarı üçün nəzərdə tutulmuş həllərimizi təqdim etdim.

**İQOR POLUEKTOV**
"BURAN GROUP" şirkətinin marketinq direktoru



Burada neft-qaz sektoru və alternativ enerji sahələri üzrə bir çox yeniliklər nümayiş olunur. Həm yeni baxışlar və çağırışlar, həm də ən son texnologiyalar burada təqdim edilir və biz bunları yaxından müşahidə edirik. Yerli şirkətlər, Çin şirkətləri və digər ölkələrdən olan şirkətlər də öz fəaliyyətləri, inkişaf strategiyaları və gələcək vizyonları barədə təsəvvür formalaşdırırlar. Buradakı iştirakçıların böyük hissəsini Azərbaycanın iri korporasiyalarının rəhbərləri və nümayəndələri təşkil edir.

**Elvin Abbasov**
Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Asossiasiyasının İdarə heyətinin sədri



Sərgidə iştirak etməkdə əsas məqsədim gələcək karyeram və təhsilimlə bağlı daha çox seçim və imkanları kəşf etməkdir. Müxtəlif ölkələrin şirkətləri haqqında məlumat toplamaq və onların hansılarının mənim gələcək məqsəd və hədəflərimə uyğun olduğunu müəyyənləşdirmək istəyirəm. Sərgidə universitetdə öyrəndiyimiz müxtəlif avadanlıqlar, o cümlədən nasoslar, qaz kəmərləri, pompalar, borular və digər hidravlik qurğular haqqında daha ətraflı məlumat əldə etdim. Yəni onlar haqda canlı olaraq izah aldım. Sərginin əhəmiyyətini də elə bunda gördüm ki, həm peşəkar biliyimi artırdım, həm də dünyada neft-qaz və energetika sahəsində olan yeniliklərlə tanış ola bildim. Fikirimcə, bu baxımdan sərgi cox gözəl bir alətdir.

**Məlahət Hacızadə**
"Azərbaycan - Fransa" Universitetində kimya mühəndisliyi üzrə 3-cü kurs tələbəsi

# SƏRGİLƏRİN İŞTİRAKÇILARI



**247** ŞİRKƏTLƏR

**46** ÖLKƏLƏR

**4379 m²** SƏRGİ SAHƏSİ

## BAKU ENERGY WEEK İŞTİRAKÇI ÖLKƏLƏR

- Albaniya Respublikası
- Almaniya Federativ Respublikası
- Amerika Birləşmiş Ştatları
- Avstriya Respublikası
- Azərbaycan Respublikası
- Banqladeş Xalq Respublikası
- Belarus Respublikası
- Belçika Krallığı
- Bolqarıstan Respublikası
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı
- Birləşmiş Ərəb Əmirlikləri
- Çex Respublikası
- Çin Xalq Respublikası
- Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati Bölgəsi
- Əlcəzair Xalq Demokratik Respublikası
- Filippin Respublikası
- Fransa Respublikası
- Gürcüstan
- Hindistan Respublikası
- İspaniya Krallığı
- İsveçrə Konfederasiyası
- İtaliya Respublikası
- Yaponiya
- Qətər Dövləti
- Qazaxıstan Respublikası
- Kanada
- Keniya Respublikası
- Qırğızıstan Respublikası
- Litva Respublikası
- Lüksemburq Böyük Hersoqluğu
- Macarıstan Respublikası
- Misir Ərəb Respublikası
- Moldova Respublikası
- Monako Knyazlığı
- Niderland Krallığı
- Norveç Krallığı
- Özbəkistan Respublikası
- Ruminiya Respublikası
- Rusiya Federasiyası
- San-Marino Respublikası
- Serbiya Respublikası
- Sinqapur Respublikası
- Səudiyyə Ərəbistanı Krallığı
- Tacikistan Respublikası
- Türkiyə Respublikası
- Ukrayna

# İŞTİRAKÇILARIN RƏYLƏRİ




Sərgidə iştirakımızın əsas məqsədi Azərbaycanda məhsullarımızı təmsil edə və onların quraşdırılmasını həyata keçirə biləcək distribyutor tapmaqdır. Bu sərgi sahənin aparıcı mütəxəssislərini bir araya gətirən ixtisaslaşmış platformadır və burada bazarın əsas iştirakçıları təmsil olunur. Ziyarətçilərin yüksək peşəkar marağının şahidi olduq və iştirakımızın konkret nəticələr verəcəyinə ümid edirik.

**Covanni Çipolla**
Nupi Industrie Italiane şirkətinin kommersiya direktoru



Şirkətimiz üçün bu, neft və qaz sərgisində ilk iştirak təcrübəsidir. Ümumilikdə isə bu tip sərgilərdə ilk iştirakımızdır və gələcəkdə də oxşar tədbirlərdə, xüsusilə təhlükəsizlik və sənaye müdafiəsi sərgilərində iştirak etməyi planlaşdırırıq. Son üç gün ərzində bizə həm Azərbaycanda tanıdığımız şirkətlər, həm də yeni maraqlı tərəflər yaxınlaşıb və biz onlara ətraflı məlumat təqdim etmişik. Sərgidən sonra əlaqələri davam etdirməyi planlaşdırırıq. Eyni zamanda şirkətin tanıtımını və marketinq fəaliyyətini genişləndirmək üçün digər platformalarda da iştirak etməyi nəzərdən keçiririk.

**Ruslan Nəsibov**
ZE-TRONICS QSC-nin direktoru



Ümumi təəssüratlar müsbətdir: həllərimizə fəal maraq göstərən çox sayda ziyarətçi var. Eyni zamanda, burada ciddi və peşəkar bir auditoriyanın toplandığı hiss olunur. Onlar əsasən yerli şirkətlərin nümayəndələridir, lakin beynəlxalq bazar iştirakçılarının, o cümlədən Almaniya şirkətlərinin də marağı hiss olunur ki, bu da dialoqu daha rəqabətli və məzmunlu edir. Tədbirin statusunu xüsusilə qeyd etmək lazımdır — bu il sərgini ölkə prezidentinin şəxsən özü ziyarət edib və bu, şübhəsiz ki, sərginin əhəmiyyətini, eləcə də sahəyə olan diqqətin səviyyəsini vurğulayır. Bizim üçün bu, yeni bir məkanda yaxşı bir başlanğıcdır və böyük ehtimalla, biz bu cür sərgilərdə iştirakımızı, bəlkə də müntəzəm olaraq davam etdirəcəyik.

**Konstantin Sarançukov**
Regional satış meneceri (MDB və Mərkəzi Asiya) PEPPERL+FUCHS LLP



Bu, Caspian Oil & Gas sərgisində iştirakımızın ilk təcrübəsidir. Tədbir gözlədiyimizdən daha genişmiqyaslı və faydalı oldu. Stendimizi həm təchizatçılar, həm də investorlar ziyarət etdilər. Əvvəllər tanımadığımız şirkət və mütəxəssislərlə yeni əlaqələr qurduq. Məsələn, Kanada şirkəti Grand Tenerya ilə tanış olduq. Onlar Kubada qazma əməliyyatları ilə bağlı kəşfiyyat layihəsində iştirak imkanını nəzərdən keçirirlər. Həmkarlarımız dərhal bizimlə əlaqə saxlayaraq lazımi sənədləri təqdim etdilər. Bu gün səhər artıq danışıqlar aparıldı.Bundan əlavə, Türkiye Petrolleri və BP ilə əlaqələrimizi davam etdiririk. SOCAR və TOTAL ilə isə uzunmüddətli tərəfdaşlıq münasibətlərimiz mövcuddur. Sərgi çərçivəsində Çin təchizatçıları ilə əməkdaşlıq da xeyli gücləndi, onlar şirkətimizə böyük maraq göstərdilər.

**Tevfik Yavuz**
Tenderlər və kommersiya təkliflərinin hazırlanması üzrə rəhbər,
ILK İNŞAAT TAAH. SAN. VE TİC. A.Ş.



Bu, mənim Azərbaycana ilk səfərimdir. Ölkə məndə çox xoş təəssürat yaradıb, xüsusilə təbiəti və dənizi. Həmçinin sərginin yüksək səviyyədə təşkil olunduğunu və burada rahat işgüzar atmosferin mövcud olduğunu qeyd etmək istərdim.Ümumilikdə, sərgidə iştirak çox müsbət təəssürat yaradır. İştirakçıların fəallığı və təqdim olunan həllərə olan maraq aydın şəkildə hiss olunur.

**Bo Çxun**
Hebei Silicon Valley Chemical Şirkətinin Beynəlxalq şöbə müdiri

# İŞTİRAKÇILARIN RƏYLƏRİ



Sərgi yüksək səviyyədə təşkil olunub. Burada neft-qaz sənayesində fəaliyyət göstərən şirkətlər təmsil olunur, buna görə də bu, peşəkar ünsiyyət və təcrübə mübadiləsi üçün yaxşı imkandır. Ümumilikdə tədbirin təşkilindən və burada formalaşan atmosferdən məmnunuq.

**Səbinə Ələkbərova**
Aparıcı HR mütəxəssisi, SOCAR-KBR MMC



Sərgi bizim üçün çox uğurlu oldu. İlk iki gün ərzində çoxlu maraqlı insanlarla və müxtəlif şirkətlərin nümayəndələri ilə görüşmək imkanı əldə etdik. Buraya gəlməyimizin əsas məqsədi də məhz bu idi. Azərbaycan, Türkiyə, Çin, Rusiya və bir sıra digər ölkələrin şirkətləri ilə əlaqələr qurduq.
Ümumilikdə, sərginin təşkilindən və iştirakımızın nəticələrindən məmnunuq. Təqdim etdiyimiz həllərə həm iştirakçılar, həm də ziyarətçilər tərəfindən böyük maraq göstərildiyini müşahidə etdik.

**Vatslav Osiçka**
Əsas müştərilərlə iş üzrə menecer, TES Vsetin A.S.



Sərgi olduqca müsbət təəssürat yaratdı. Tədbir yüksək səviyyədə təşkil olunub və işgüzar mühit rahatdır. Şirkətimiz artıq bir neçə ildir ki, bu sərgidə iştirak edir və əminliklə deyə bilərəm ki, mənim fikrimcə, bu il potensial alıcıların sayı ötən illə müqayisədə daha çoxdur. Bu, əlbəttə ki, bizim üçün ümidverici bir göstəricidir.
Hələlik konkret müqavilələr imzalanmasa da, danışıqlar çox fəal şəkildə davam edir. Biz tərəfdaş və müştəri axtarışını aktiv şəkildə davam etdiririk. Əsas maraq dairəmiz Azərbaycanda fəaliyyət göstərən yerli şirkətlərlə əməkdaşlıqdır.

**İlir İliri**
MWM şirkətinin ərazi üzrə meneceri



Artıq beşinci ildir ki, biz bu sərgidə ardıcıl olaraq iştirak edirik. Bizim üçün bu şirkəti təqdim etmək və bazarla birbaşa ünsiyyət qurmaq üçün vacib və artıq ənənəvi bir platformadır. Sərgi çərçivəsində bizə müxtəlif ölkələrdən və şirkətlərdən nümayəndələr yaxınlaşır, ilkin tanışlıqlar və müzakirələr aparılır. Maraqlananlar arasında Rusiya və İtaliyadan olan iştirakçılar, həmçinin əsasən yerli Azərbaycan şirkətləri var idi. Bu tip tədbirləri biz hər iki tərəf üçün faydalı platforma kimi qiymətləndiririk həm tərəfdaş axtaranlar, həm də öz xidmətlərini və həllərini təqdim edənlər üçün.

**Zülfüqar Nurubayli**
CBM ENGINEERING MMC-nin direktoru



Bu, bizim ilk sərgimizdir və təəssüratlarımız gözlədiyimizdən də müsbətdir. Buradakı insanlar olduqca mehriban və qonaqpərvərdirlər. Son üç gün ərzində stendimiz çoxsaylı ziyarətçilərin diqqətini cəlb edib və əməkdaşlarımız onlarla davamlı ünsiyyətdə olublar.
Burada həm sahə üzrə tərəfdaşlarla, həm də enerji saxlama sistemləri ilə maraqlanan potensial müştərilərlə görüşmək imkanımız olub. Bu baxımdan həllərin və mümkün əməkdaşlıq istiqamətlərinin müzakirəsi hər zaman həm faydalı, həm də xoşdur. Bu günlər ərzində artıq bir sıra işgüzar görüşlər keçirilib və yeni əlaqələr qurulub. Onların bir hissəsi sərgidən əvvəlcədən planlaşdırılmışdı. Hazırda danışıqlar və müzakirələr mərhələsindəyik və gələcəkdə daha konkret nəticələr əldə edəcəyimizi gözləyirik.

**Aygerim Omirzak**
GOTION HIGH-TECH CO., LTD. şirkətinin satış mühəndisi

# İŞGÜZAR PROQRAMI




## SƏRGİLƏRİN İŞGÜZAR PROQRAMI ÇƏRÇİVƏSİNDƏ 43 MƏRUZƏÇİNİN İŞTİRAKI İLƏ AŞAĞIDAKI PANEL MÜZAKİRƏLƏRİ KEÇİRİLDİ:

- "Ağıllı istehsal: Süni intellekt, ağıllı qazma və təhlükəsiz məhsul sahələrinin istismarı"
- "Upstream əməliyyatlarında emissiyaların azaldılması: Praktiki yanaşmalar — metan emissiyalarının azaldılması, elektrikləşdirmə və dərhal təsir göstərən əməliyyat səmərəliliyinin artırılması"
- "Rəqəmsal Upstream: İstehsalın optimallaşdırılmasında avtonom platformaların tətbiqi"
- "Cənub Qaz Dəhlizi: Enerji təhlükəsizliyi və regional əməkdaşlıq"
- "Neft və qaz yataqlarının inkişafı üçün yeni layihələr: Müasir texnologiyaların tətbiqi təcrübəsi"
- "Risklərin müəyyənləşdirilməsindən hadisələrin qarşısının alınmasınadək – Praktiki SƏTƏM vasitələri"
- "Ağıllı boru kəmərləri: İnfrastrukturda rəqəmsal inqilab"
- "Azərbaycanda binaların dam örtükləri əsasında paylanmış günəş fotovoltaik potensialının xəritələşdirilməsi"
- "Bərpa olunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyası: Çağırışlar və həllər”

# B2B/B2G GÖRÜŞLƏR





Sərgi çərçivəsində iştirakçılara potensial tərəfdaşlar, müştərilər və sənayenin aparıcı nümayəndələri ilə birbaşa danışıqlar aparmaq imkanı yaradan B2B/B2G görüşlər təşkil olunmuşdur.

**Ümumilikdə 78 işgüzar görüş keçirilmişdir**



# AXŞAM ZİYAFƏTİ




Sərgiyə həsr olunmuş axşam ziyafəti 1 iyun tarixində Elite Events Hall-da keçirilmişdir. Tədbir çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların yaratdığı rəsm əsərlərinin təqdim olunduğu xeyriyyə hərracı təşkil edilmişdir. Hərracdan əldə olunan bütün vəsait gənc rəssamların dəstəklənməsi məqsədilə onların xeyriyyə fonduna ianə edilmişdir










# SPONSORLAR VƏ TƏRƏFDAŞLAR

## DƏSTƏK

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

## BAŞ TƏRƏFDAŞ

SOCAR

## QIZIL SPONSORLAR

acwa · BAKU STEEL COMPANY · bp · MASDAR · MOLGROUP · XRG

## GÜMÜŞ SPONSOR

ABB · TÜRKİYE PETROLLERİ ANONİM ORTAKLIĞI

## BÜRÜNC SPONSORLAR

KOLİN · slb · TotalEnergies

## RƏSMİ BANK

PASHA Bank

## RƏSMİ AVTOMOBİL

İMOTORS

## RƏSMİ MEBEL TƏRƏFDAŞI

ACCURATE AZ

## REKLAM TƏRƏFDAŞI

bilbord.az

## TƏŞKİLATÇILAR

Iteca Caspian · icaevents · ceo caspian event organisers · caspian event management · E&C

## RƏSMİ MEHMANXANALAR

Marriott Baku Boulevard · Sheraton Baku Intourist · ART · Radisson Baku · Courtyard by Marriott Baku · The Merchant · Hilton Garden Inn Baku · ibis

## TİBB XİDMƏTLƏRİ ÜZRƏ TƏRƏFDAŞ

Baku Medical Plaza

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

GREENWICH TRAVEL CLUB

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

AZ EXPO MONTAGE

## OFFICIAL MEDIA PARTNER

euronews.

BAKU ENERGY WEEK

2 | 3 | 4 İYUN 2027



## HAQQINDA QISA MƏLUMAT

CASPIAN OIL&GAS

32-ci Beynəlxalq

# XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİ

## SƏRGİNİN ƏSAS BÖLMƏLƏRİ

- AVTOMATLAŞDIRMA, EMAL AVADANLIQLARI VƏ XİDMƏTLƏR
- BORU KƏMƏRLƏRİ – KONSTRUKSİYASI, AVADANLIQLARIN TEXNİKİ XİDMƏTİ VƏ TƏMİRİ
- QAZMA VƏ QUYUNUN TAMAMLANMASI
- ELEKTRON AVADANLIQLAR VƏ XİDMƏTLƏR
- GƏMİ AVADANLIQLARI VƏ XİDMƏTLƏRİ
- KƏŞFİYYAT VƏ HASİLAT
- SƏTƏM
- GEOLOJİ VƏ GEOFİZİKİ TƏDQİQATLAR
- MÜHƏNDİS-LAYİHƏ İŞLƏRİ, OBYEKTLƏR / QURĞULAR, TİKİNTİ
- KORROZİYADAN MÜHAFİZƏ VƏ İZOLYASİYA AVADANLIQLARI
- DÖVLƏT MÜƏSSİSƏLƏRİ, TƏŞKİLATLAR VƏ PEŞƏKAR XİDMƏTLƏR
- NEFT YATAĞI ÜZRƏ XİDMƏTLƏR
- NEFT VƏ QAZIN NƏQLİ
- NEFT-QAZ XİDMƏTLƏRİ
- NEFT-QAZ AVADANLIQLARI
- XİDMƏT ŞİRKƏTLƏRİ
- TELEKOMMUNİKASİYA VƏ İT
- NEFT ŞİRKƏTİ (BEYNƏLXALQ NEFT ŞİRKƏTİ / DÖVLƏT NEFT ŞİRKƏTİ)

www.cog.az

# BakuEnergyWeek

RƏSMİ DƏSTƏK

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

SOCAR

## HAQQINDA QISA MƏLUMAT

BAKU ENERGY WEEK

2 | 3 | 4 İYUN 2027

CASPIAN POWER

# BÖLMƏLƏRİ

15-Cİ YUBİLEY XƏZƏR BEYNƏLXALQ

# TƏMİZ ENERJİ SƏRGİSİ

www.caspianpower.az

# BakuEnergyWeek

- Günəş enerjisi
- Külək enerjisi
- Bioenerji
- Hidrogen enerjisi
- İstilik enerjisi
- Hidroenergetika
- Geotermal enerji
- Nüvə enerjisi
- Maşınqayırma və enerji avadanlıqları
- Elektrik və istilik enerjisinin ötürülməsi və paylanması
- Elektrik nəqliyyat vasitələri
- İşıqlandırma. Enerji və resurslara qənaət edən texnologiyalar
- Enerji obyektlərinin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi
- Ölçmə və nəzarət sistemləri və vasitələri
- Proqram təminatı
- Layihələndirmə və mühəndislik





**RƏSMİ DƏSTƏK**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

SOCAR

# BAKU ENERGY WEEK

**2 | 3 | 4 İYUN 2027**



CASPIAN OIL&GAS

CASPIAN POWER

BAKU ENERGY FORUM

## GƏLƏN İL GÖRÜŞƏNDƏK!

www.bew.az

# BakuEnergyWeek

Təşkilatçılar

ITECA CASPIAN · icaevents · ceo caspian event organisers · caspian event management · E&C